# İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARIMIZDA KƏHRİZ SULARINDAN İSTİFADƏ

**Turan Məhərrəmbəy**

*AR Milli Aerokosmik Agentliyinin*
*Xüsusi Konstruktor Texnoloji Bürosu, Bakı*
*muharrembeyturan@gmail.com*

Temperaturun artması və dünyada baş verən iqlim dəyişməsi, onu sübut etdi ki, insanlar su ehtiyatlarından, o cümlədən yeraltı sulardan düzgün və səmərəli istifadə etmirlər. Bunu nəzərə alaraq dünyanın bir çox alimləri və dövlət orqanlarının əsas diqqəti kəhriz sistemlərindən su çıxarılmasına yönəlib. Onu da qeyd edə bilərik ki, qədim hidrotexniki qurğu olan kəhrizlər həmişə normal həyat fəaliyyətinin aparılmasına xidmət edib və gələcək zamanda da ümidverici meliorativ sistemlərdən birinə çevriləcək. Quraq zonalarda ən etibarlı su mənbəyi kimi, keçmiş dövrlərdə istifadə olunub. 45-ə yaxın ölkədə su probleminin həllində kəhriz sistemlərindən istifadə olunur. Ətraf mühit üçün ən ziyansız sistem olan kəhrizlər ekosistemlərə heç bir mənfi təsir etmir. Təbii drenaj rolunu oynayan kəhrizlər son illərdə sıradan çıxıb. Nəticədə isə minlərlə hektar kənd təssərüfatı sahələri istifadə edilə bilməyib. Bu da ekoloji tarazlığın pozulmasına səbəb olub, həmin ərazilərdə olan heyvanat və bitki aləmi məhv olaraq yerində bataqlıq və şoranlığa uyğun fauna və flora formalaşmasına səbəb olmuşdur. Respublikamızın ərazisində 885 kəhriz rəsmi olaraq 1938-ci ildə dövlət qeydiyyatına alınıb ki, bunların 50%-dən çoxu Qarabağ bölgəsində olub, onlardan suvarma mənbəyi kimi istifadə edilib. Hesablamalara görə Azərbaycanda olan su kəhrizlərinin cəmi su sərfi saniyədə 13,5 kubmetr, il ərzindəki həcmi isə 420 milyon kubmetr olduğu müəyyən edilmişdir. Araşdırmalar nəticəsində o da müəyyən olunmuşdur ki, indi həmin suyun 20-25 faizindən istifadə olunur. Təxmini olaraq 350-400 milyon kubmetr keyfiyyətli və təmiz kəhriz suyundan il ərzindən istifadə olunmur. Hesab olunur ki, iqtisadi cəhətdən səmərəli hidrotexniki qurğu olan kəhriz, müasir texnologiya məhsulu olan nasosdan bir çox üstün cəhətləri ilə seçilir. Bu perspektivləri nəzərə alaraq bu sahəyə diqqətin artırılması ilə mövcud kəhrizlərin qorunması və yeni kəhrizlərin qazılması layihələrinin üzərində işlənilməsi diqqət mərkəzindədir. Torpaqlarımızın işğaldan azad olunması nəticəsində 300-dən çox kəhriz yenidən qiymətləndirildi. Mənfur düşmən yenədə öz pis əməllərindən geri qalmamış hətta kəhrizlərimizi belə dağıtmışlar. Kəhrizlərin çoxu minalar, kimyəvi maddələr və zəhərli maddələr ilə yararsız hala salınmışdır. Kəhrizlərin minalardan, kimyəvi və zəhərli maddələrdən təmizlənməsi, həmçinin uçurulmuş kəhrizlərin yenidən qurulması bizim qarşımızda vəzifə olaraq durur. Azərbaycan Respublikası ərazisində zəngin yeraltı su ehtiyatları olmağına baxmayaraq, hələ də kəhriz sistemi elmi-təcrübi cəhətdən tam dəqiq tədqiq olunmayıb. Mövcud su problemlərini nəzərə alsaq deyə bilərik ki, bu gün kəhrizlərin tədqiq edilməsinə və bərbad vəziyyətdə olan bəzi qədim kəhrizlərin bərpasına ciddi ehtiyac yaranıb. İşğaldan azad edilmiş torpaqlarımızda kəhrizlərin bərpa edilməsi həm iqtisadi, həm də tarixi baxımdan böyük əhəmiyyət kəsb edir. Su mənbələrimizin ermənilər tərəfindən çirkləndirildiyi üçün, kəhrizlərin bərpası və yeni kəhrizlərin qazılması su qıtlığı probleminin həllinə aparan əsas yollardan biridir.

Taxıllar suvarma səmərəliliyini artırır və suyun birbaşa torpağa daşınmasına imkan verməklə su itkisini minimuma endirir. O, həmçinin yeraltı suların səviyyəsini sabitləşdirir və torpaq eroziyasını azaldır. İşğal olunmuş əraziləri azad etməklə bu torpaqların yenidən abadlaşdırılması üçün kənd təsərrüfatı istehsalına dəstək verəcək resursların buraxılması çox vacibdir. Şəhər sistemlərinin bərpası və ya yenidən qurulma-

sı bu torpaqların kənd təsərrüfatı istehsalında potensialını artıra və yerli əhalinin güzəranını gücləndirə bilər.

İşğaldan azad olunmuş torpaqlarımızda kəhriz sularından istifadə etmənin nəticələri müxtəlif sahələrdə görülə bilər:

1.**Kənd Təsərrüfatının İnkişafı:** Kəhrizlərdən suyun istifadəsi tarım sahəsində verimliliyi artırır. Daha geniş su təchizatı əkin sahələrinin genişləndirilməsini və məhsul dərəcəsini artırır.

2.**Su Təsirsizliyinin Artması:** Kəhrizlərdən gələn su suyun təsirsizliyinin artmasına kömək edir. Bu, suyun daha effektiv şəkildə istifadə edilməsi və su təminatının daha dairəvi olması deməkdir.

3.**Yerli Kənd Təsərrüfatının İnkişafı:** Kəhrizlər yerli kənd təsərrüfatının inkişafını dəstəkləyir. Su təminatı məsələlərini həll etmək, kəndlilərə daha çox mənsub olduğu əraziyə yatırım etməyə imkan verir.

4.**Ətraf Mühitlə Dostluq:** Kəhrizlərdən su istifadəsi suyun ətraf mühitə pozitiv şəkildə təsir etməsinə kömək edir. Sudan səmərəli istifadə edildikdə, ətraf mühit dəstəklənir və su ehtiyatları qorunur.

5.**İnfrastrukturun İnkişafı:** Kəhrizlər vasitəsilə su təminatının sağlanması ərazi infrastrukturunun inkişafına da təkan verir. Yol, su kanalları və digər infrastruktur tədbirləri inkişaf edir.

Yuxarıda qeyd olunanlar sadəcə bəzi nümunələrdir. İşğaldan azad olunmuş torpaqlarımızda kəhriz sularının istifadəsi müxtəlif sahələrdə inkişafı təmin edə biləcək müsbət nəticələrə səbəb ola bilər.